**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN KOLLEGİYASI**

**Q Ə R A R**
**№ 60-2**

**Bakı şəhəri** **08 iyul 2022-ci il**

# BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiyası"nın icrasına dair altıncı dövri hesabatın yekun nəticələri barədə

16 iyun 2022-ci il tarixində BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin Cenevrə şəhərində keçirilən 82-ci sessiyasında Azərbaycan Hökumətinin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiyası"nın icrasına dair altıncı dövri hesabatı təqdim edilib.

CEDAW Komitəsinin ekspertləri Azərbaycan hökumətinin gender bərabərliyinin təminatı və qadınların səlahiyyətləndirilməsinə dəstək proqramlarını yüksək qiymətləndiriblər. Həmçinin, ekspertlər ölkədə qadınların siyasi və ictimai həyatda iştirakçılığının artırılması üzrə tədbirləri, kənd qadınlarına göstərilən dəstək xidmətlərini, insan alveri, məişət zorakılığı ilə mübarizəyə dair milli fəaliyyət planlarını, eləcə də cins əsaslı seçiminin qarşısının alınmasına dair qəbul edilmiş Tədbirlər Planını yüksək qiymətləndirib.

Hesabat dinlənildikdən sonra, CEDAW Komitəsi tərəfindən yekun tövsiyələrin hazırlanaraq cari ilin iyul ayının sonunadək hökümətə təqdim edilməsi gözlənilir.

Tövsiyələr əsasən hökümətin növbəti hesabat dövrünədək qadın hüquqları və gender bərabərliyinin daha yaxşı təmin edilməsi, bu istiqamətdə mövcud boşluqların aradan qaldırılması istiqamətdə tədbirlərin görülməsini əhatə edir.

BMT-nin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiyası”nın icrasına dair altıncı dövri hesabatın yekun nəticələri barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**Q Ə R A R A  A L I R:**

1. BMT-nin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiyası”nın icrasına dair altıncı dövri hesabatla bağlı təqdim ediləcək tövsiyələrin icrasının təmin edilməsi məqsədilə Dövlət Komitəsi yanında qurumlararası işçi qrupunun yaradılması ilə bağlı tədbirlər görülsün
2. Təqdim ediləcək tövsiyələrin icrası məqsədilə Dövlət Komitəsi sədrinin 16 may 2022-ci il tarixli, 99 nömrəli Əmrinə əsasən yaradılmış işçi qrupu aşağıdakıları təmin etsin:
   - **2.1.** Təqdim ediləcək tövsiyələrin əlaqələndirilmiş formada aidiyyatı qurumlar və qeyri-hökümət təşkilatlarına çatdırılması və müzakirəsini təşkil etsin;
   - **2.2.** Təqdim ediləcək tövsiyələrdən irəli gələrək, Dövlət Komitəsinin səlahiyyətləri çərçivəsində icrası mümkün olan tövsiyələrin həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının layihəsini tövsiyələrin təqdim edildiyi vaxtdan 2 (iki) ay müddətində hazırlasın və Dövlət Komitəsinin sədrinə təqdim etsin;
   - **2.3.** Ölkə üzrə tövsiyələrin həyata keçirilməsi ilə bağlı illik məlumatları hazırlasın və Dövlət Komitəsinin sədrinə təqdim etsin;
   - **2.4.** Fəaliyyətini Dövlət Komitəsi yanında yaradılacaq qurumlararası işçi qrupla əlaqəli şəkildə təşkil etsin.
3. Kadr və kargüzarlıq şöbəsinin müdir müavini Sevinc Bilalova Qərarın surətinin Komitənin aidiyyəti şöbələrinə təqdim edilməsini təmin etsin.
4. Qərarın icrasına nəzarət öz səlahiyyətləri daxilində Dövlət Komitəsinin sədr müavini S.Qəhrəmanovaya və aparat rəhbəri C.Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**